*Əlavə _*
*Azərbaycan Respublikası Dövlət Neft*
*Şirkətinin __.__.____-ci il tarixli,*
*__ nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi**
**Vakansiyanın təsviri forması**
(SOCARSS – 006.2021)

---

**01.1 Standartlaşmanın məqsədi** – SOCAR-ın müvafiq standart sənədinə uyğun olaraq müəssisənin səlahiyyətli nümayəndələri tərəfindən təsdiqlənmiş və elektron bazada yerləşdiriləcək vakansiyaya dair təsbit olunacaq zəruri məlumatların və tələblərin müəyyən edilməsidir**.**

**01.2Vakansiyaya dair məlumat** – vakansiyanın təsviri aşağıdakı məlumatları özündə ehtiva edir:

1. **Vakansiyanın adı.**
2. **Əməyin ödənilmə dərəcəsi.**
3. **Əmək haqqı:** vəzifə və ya tarif (işəmuzd və ya vaxtamuzd) maaşı.
4. **Əlavə ödənişlər:** dəniz, səhra, ağır, zərərli və sair iş şəraitinə görə əmək haqqına əlavələr, sosial ödənişlər və sairə.
5. **Sığorta təminatı:** sosial, tibbi, həyat və s.
6. **Müəssisənin adı:** məsələn, “Azneft” İstehsalat Birliyi
7. **Təşkilatın adı:** məsələn, “Neft Daşları” NQÇİ
8. **Müəssisənin struktur bölməsinin adı:** sex, şöbə, sahə, xidmət və sairənin adı.
9. **İş yerinin ünvanı:** iş yerinin yerləşdiyi sex, şöbə, sahə, xidmət və sairənin ünvanı.
10. **İş yerinə çatdırma:** işçilərin toplanma məntəqəsinin ünvanı və nəqliyyat vasitəsinin növü və ya müəssisə tərəfindən ayrılmış nəqliyyat vasitələrinin marşrutları**.**
11. **İş şəraiti:** dənizdə (quru ilə əlaqəsi olan və ya olmayan) və ya quruda, qapalı və açıq mühitdə, səyyar və ya stasionar xarakterli, ağır, zərərli (qeyd olunmaqla) və ya normal və sairə.
12. **İş rejimi: normal və ya növbəli** məsələn, həftəlik iş saatı norması – 40 saat; həftədə iş günlərinin sayı – 5 gün; iş gününün davamiyyəti – 8 saat; iş günləri – həftənin 1-5-ci günləri (Qanunvericililə nəzərdə tutulmuş qeyri-iş günləri istisna olmaqla); iş vaxtı – saat 09:00-dan 18:00-dək; fasilə - saat 13:00-dan 14:00-dək.
13. **Yataqxana təminatı.** Verilir və ya verilmir (ailəlilər və ya subaylar üçün).
14. **Vəzifə funksiyaları.** (vəzifə standartı, o olmadıqda vəzifə/peşə təlimatına uyğun olaraq**):** Vəzifə üzrə öhdəliklər əlavə olunmalıdır.

**01.3. Vakansiyaya dair tələblər:**

1. **Təhsil pilləsi:** minimum təhsil pilləsi
2. **Təhsil sahəsi:** ümumi, texniki və ya müvafiq ixtisas sahəsi
3. **İş stajı:** müvafiq ixtisas sahəsi üzrə, ümumi iş stajı, istehsalatda iş stajı və ya neft-qaz sektoru üzrə (tələb olunan müddətləri göstərilməklə)
4. **İxtisas səriştəlilikləri** (Vəzifə standartına əsasən tərtib olunur, o olmadıqda Vəzifə təlimatının Bilməlidir hissəsinə istinad olunur)
5. **Davranış səriştəlilikləri** (Vəzifə standartına əsasən tərtib olunur, o olmadıqda baza davranış səriştəlilikləri əlavə olunur)
6. **Xarici dil biliyi**
7. **Kompüter bilikləri**
8. **Bacarıq və qabiliyyətlər**
9. **Peşə sertifikatı və ya vəsiqə (həmçinin icbari təlimlər)**
10. **Digər tələblər.**

**01.4. Vakansiya üzrə keçirilən müsabiqənin müddəti.**